№ 36 (979) 5-12 sentyabr 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# AZƏRBAYCAN ÖZ KEYFİYYƏTLİ MƏHSULU İLƏ DÜNYA BAZARLARINA DAHA DA BÖYÜK HƏCMDƏ ÇIXACAQ

Sentyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəlilabad və Lənkəran rayonlarında səfərdə olub.

O, Cəlilabad rayonuna səfəri çərçivəsində sentyabrın 2-də Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 22,2 kilometrlik Lənkəran-Masallı hissəsinin, əsaslı şəkildə yenidən qurulan Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 32,2 kilometrlik Masallı-Cəlilabad hissəsinin açılışlarında iştirak edib.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəlilabada səfəri çərçivəsində şəhərin içməli su təchizatı sisteminin və kanalizasiya şəbəkəsinin istifadəyə verilməsi mərasimində iştirak edib, "Günəşli-Aqro" Məhdud Məsuliyyətli Cəmiyyətin aqroparkında yaradılan şəraitlə tanış olub.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Lənkərana səfəri çərçivəsində fermer Araz Yaqubovun "Yaşıl Çay" MMC-nin plantasiyasında görülən işlərlə tanış olub, "Astaraçay" Məhdud Məsuliyyətli Cəmiyyətinin plantasiyalarına baxıb, "Cənub-Aqro" MMC-nin çəltik sahələrinə baxıb və çəltik zavodunun açılışını edib. Sonra o, Lənkəranda "Xəzər Palace" otel kompleksinin açılışında iştirak edib, "Gilan Orchards" MMC tərəfindən salınmış sitrus bağları ilə tanış olub.

* * * * *

Sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Lənkəranda çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib. Prezident İlham Əliyev müşavirədə çıxış etmişdir. O öz çıxışında son illər respublikada kənd təsərrüfatının inkişafı istiqamətində görülən işlərdən danışmış, dövlətin bu sahəyə göstərdiyi diqqət və dəstəyi vurğulamışdır.

**O, qeyd etmişdir: "Ərzaq təhlükəsizliyi əlbəttə ki, bizim üçün əsas məsələlərdən biridir. Son illər ərzində bu istiqamətdə çox önəmli addımlar atılmışdır. Bizim üçün ənənəvi olmayan sahələri inkişaf etdirmişik. Biz əvvəlki illərdə - sovet dövründə əti, südü, toyuq ətini Azərbaycana başqa respublikalardan gətirirdik. Bu gün bu sahələr üzrə çox böyük inkişaf var. Ət istehsalı təxminən 100 faiz səviyyəsində daxili imkanlar hesabına təmin edilir. Toyuq əti 100 faiz, hətta ixrac edirik. Süd isə 80 faiz daxildə istehsal olunur. Görüləcək tədbirlər nəticəsində biz 100 faiz səviyyəsinə çatacağıq.**

Bizim üçün ənənəvi olan sahələr də bu gün uğurla inkişaf etdirilir. Pambıqçılıq. Biz pambıqçılığın şöhrətini bərpa etdik. İki il ərzində çox böyük işlər görüldü. Pambıq sahələri 17 min hektardan 136 min hektara çatdırıldı. İki müşavirə keçirildi – Sabirabadda və Saatlıda. Tütünçülük, fındıqçılıq, baramaçılıq sürətlə inkişaf edir. Qax rayonunda müşavirə keçirildi və tütün sahələri 3200 hektara çatdı. Fındıq bağlarının sahəsi 55 min hektara çatdı, 80 min hektara çatacaq. Barama istehsalı isə indi ölkəmizin bütün bölgələrində geniş vüsət alıb. Dünən Lənkəranda tut tingləri sahəsinə də baxış keçirdim. Görürəm ki, Lənkəranda da




bu sahəyə böyük maraq var. Baxmayaraq ki, sovet vaxtında baramaçılıq Lənkəranda və bu zonada inkişaf etdirilmirdi. Bu sahələrin inkişafı məşğulluğu artırır, idxaldan asılılığı azaldır, ixrac potensialımızı gücləndirir. Bizim məqsədimiz bundan ibarətdir".

* * * * *

Müşavirədə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, "Astaraçay" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Tələt Məmmədov, Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, "Cənub-Aqro" Məhdud Məsuliyyətli Cəmiyyətinin aqronomu Fərman Abdullayev, Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Tofiq İbrahimov, "Gilan Orchards" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Vaqif Süleymanov, Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev çıxış etmişlər.

* * * * *

Dövlətimizin başçısı müşavirədə yekun nitqi söyləmişdir. O, demişdir:

- Çıxışlarda səslənən fikirlər, təkliflər təhlil ediləcəkdir. Bu təkliflərin icra edilməsi gələcək fəaliyyətimiz üçün də əhəmiyyət daşıyır.

Bugünkü müşavirə bir daha onu göstərir ki, Azərbaycanda kənd təsərrüfatı prioritet sahə olaraq qalır və qalacaqdır.

Qarşıya vəzifə qoyulur ki, ənənəvi olan sahələrin bərpası, dirçəldilməsi prosesi növbəti illərdə daha da sürətlə getsin və biz tezliklə bu ənənəvi sahələri bərpa edə bilək. Bu gün müzakirə mövzusu olan ənənəvi sahələrin bərpası artıq böyük bir canlanmaya gətirib çıxarıb. Bu siyasət fermerlər tərəfindən bəyənilir. Artıq yüzlərlə, minlərlə yeni iş yeri yaradılır. Vaxtilə baxımsız olan, istifadəsiz qalan torpaqlarda indi çəltikçilik, çayçılıq inkişaf etdirilir, insanlar işə cəlb olunublar. Beləliklə, biz kənd təsərrüfatının bütün sahələrini inkişaf etdirərək bir neçə məqsədə çatmış oluruq. Ölkəmizin iqtisadi potensialı artır, idxaldan asılılıq azalır, yeni iş yerləri, yeni sənaye müəssisələri yaradılır və Azərbaycan dünya bazarlarına öz keyfiyyətli məhsulunu təqdim edir.

Azərbaycanın ticarət evləri yaradılır. Artıq birinci belə ticarət evi yaradılıb, növbəti evlərin yaradılması prosesi gedir. Müxtəlif ölkələrə ticarət missiyaları göndərilir. Mən də xarici səfərlərimdə və həmkarlarımı Azərbaycanda qəbul edərkən bu məsələləri daim qaldırıram ki, Azərbaycan məhsulları müvafiq ölkələrə ixrac edilsin.

O ki, qaldı, bu gün müzakirə etdiyimiz sahələrdən biri olan çayçılığa, hamımız yaxşı bilirik ki, Azərbaycanda çayçılığın çox böyük ənənələri var. Lənkəranda birinci çay fabriki 1930-cu illərdə yaradılmışdır. Çayçılığın sürətli inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1970-ci ildə 8 min hektarda çay əkilirdisə, 1982-ci ildə təxminən 12 min hektarda çay əkilmişdir və çayın istehsalı 26 min tona çatmışdır. Burada da qeyd olundu, müəyyən səbəblər üzündən fermerlər, kəndlilər tərəfindən çayçılığa maraq azaldı, dövlət də öz dəstəyini göstərə bilmədi. Ona görə biz demək olar ki, çayçılığı itirmək ərəfəsində idik. Son illər ərzində bu sahəyə göstərilən xüsusi diqqət hesabına biz çayçılığı bərpa edirik və edəcəyik.

Hələ ki, min hektarda çay plantasiyaları əkilib. Bu, əlbəttə ki, əvvəlki dövrlə müqayisədə çox aşağıdır. Ancaq biz çay plantasiyalarını tədricən bərpa edəcəyik. Əsas vəzifələrdən biri də məhz bundan ibarətdir ki, yeni çay plantasiyaları salınmalıdır. Dövlət öz dəstəyini göstərməlidir, yerli icra orqanları fermerlərə dəstək verməlidirlər. Bu sahələr müəyyən edilməlidir. Çünki cənub zonasında boş qalan o qədər də böyük torpaq sahələrimiz yoxdur. Ona görə biz istifadəsiz qalan torpaq sahələrində, çayçılıq üçün münbit olan torpaqlarda plantasiyalar salmalıyıq. Eyni zamanda, çayçılığın inkişaf etdiyi dünyanın aparıcı ölkələrinin təcrübəsi də öyrənilməlidir. O ölkələrdə həm məhsuldarlıq çox yüksəkdir, eyni zamanda, onlar torpağın hər qarışından istifadə edirlər. Dağətəyi ərazilərdə, yamaclarda terras şəklində çay plantasiyaları salınır. Bu, eyni zamanda, sitrus meyvələrinin istehsalına da aiddir. Biz sitrusçuluğu da dağətəyi ərazilərdə, o cümlədən bu ərazilərdə inkişaf etdirməliyik. Müvafiq dövlət qurumları burada yeni çay plantasiyalarının salınması ilə bağlı təkliflərini tezliklə verməlidirlər. Əlbəttə, bu plantasiyaların su təminatı da təşkil edilməlidir. Davamlı su təminatı olmalıdır. Dünyanın ən qabaqcıl texnologiyaları tətbiq edilməlidir. Dünən çayçılıq təsərrüfatında olarkən mənə məruzə edildi ki, biz ən qabaqcıl texnologiyaları tətbiq etsək məhsuldarlığı bir neçə dəfə artıra bilərik. Bu, onu deməyə əsas verir ki, biz hətta məhdud olan torpaq sahələrində keyfiyyətli və böyük həcmdə çay istehsalına nail ola bilərik.

Çayçılıq intensiv şəkildə inkişaf etdirilməlidir. Ötən əsrin 80-ci illərindən fərqli olaraq, bu gün bu sahə üzrə kənd təsərrüfatı elmi inkişaf edib. Qeyd etməliyəm ki, dünyanın ən qabaqcıl texnologiyaları Azərbaycanda tətbiq olunmalıdır. Astara rayonuna keçən səfərimdə "Astaraçay" müəssisəsində olmuşam. Bu dəfə də həmin müəssisənin plantasiyalarında olarkən məruzə edildi ki, onlar məhz bu yanaşmanı tətbiq edirlər, ən müasir texnologiyalar tətbiq olunur.

İri çayçılıq və tingçilik təsərrüfatı yaradılmalıdır. Əlbəttə ki, xüsusi texnika gətirilməlidir. İndi bu texnika var, gətirilir. Kənd Təsərrüfatı Nazirliyi növbəti illərdə xüsusilə çayçılıq, çəltikçilik, sitrusçuluq üçün xüsusi texnikanın alınmasını təmin etsin. Mən giriş sözümdə qeyd etdim ki, 10 min texnika gətirilib. Bu texnika daha çox pambıqçılığın inkişafına xidmət göstərəcək. Biz bunun hesabına pambığın əkin sahələrini təxminən 10 dəfə artırmışıq. Bu sahələr üçün də xüsusi texnika gətirilməlidir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara güzəştli şərtlərlə kreditlər verilməlidir ki, bu işlər daha da sürətlə aparılsın.

**"2017-ci ildə də Azərbaycan uğurlu inkişaf dinamikasını saxlayır, onu möhkəmləndirir, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atır. Beləliklə, biz gələcək inkişaf üçün də gözəl şərait yaradırıq".**

**İlham Əliyev**

2016-cı ildə ölkəmizə 12 min 600 ton çay idxal edilib. Bu məqsədlər üçün ölkəmizdən 45 milyon dollar vəsait gedib. Eyni zamanda, keçən il 1100 ton çay ixrac edilib və ölkəmizə 6 milyon 100 min dollar məbləğində valyuta gəlib. Yəni, biz görürük ki, burada tarazlıq bizim xeyrimizə deyil. Biz çayı ixrac edirik. Ancaq daha çox idxal edilən xammal əsasında paketlənmiş, ya da qarışdırılmış çay ixrac edirik. Biz isə Azərbaycanda yetişdirilən çayı emal edib ixrac etməliyik. Belə olan halda, ölkəmizdən bu qədər valyuta getməyəcək.

Başqa sahələrdə olduğu kimi, nəzərə alsaq ki, indi Azərbaycanda çayçılıq geniş vüsət alır, bir neçə çayçılıq təsərrüfatı yaradılır, hesab edirəm, Çay İstehsalçıları və İxracatçıları Assosiasiyasının yaradılması məsələsinə də baxmaq olar. Digər sahələrdə belə assosiasiyalar bizim tövsiyəmizlə yaradılıb. Onlar, əlbəttə ki, o sahələrin inkişafına xidmət göstərir.

Çəltikçiliyin inkişafına gəldikdə, qeyd etməliyəm ki, Azərbaycanın 12 rayonunda çəltikçilik inkişaf edir. Dünən mən Lənkəranda çəltikçilik təsərrüfatının işi ilə tanış olmuşam.



Eyni zamanda, emal müəssisəsi də yaradılıb. Çıxışlarda səslənən təkliflərdən biri də ondan ibarətdir ki, dövlət dəstəyi hesabına yeni emal müəssisələri yaradılsın. Mən bunu dəstəkləyirəm. Bu emal müəssisələrində əlbəttə ki, həm çeşidləmə, həm keyfiyyət və həm də paketləmə üzrə ən yüksək texnologiya tətbiq edilməlidir. Paketləmə elə səviyyədə olmalıdır ki, düyünü dünyanın istənilən ölkəsinə ixrac edə bilək. Bu sahəyə də diqqət göstərilməlidir.

Qeyd etməliyəm ki, çayçılıqdan fərqli olaraq, çəltikçilik son illər ərzində sürətlə inkişaf edib. Dövlət dəstəyi kifayət qədər yüksək olub. Bu sahəyə fermerlər tərəfindən də böyük maraq var. Çünki bu, çox gəlirli bir sahədir. Sadəcə olaraq, dövlət əlavə dəstəyin verilməsi ilə bu sahəni fermerlər üçün daha da cəlbedici edə bilər. Ümumiyyətlə, biz bütün təbii imkanlarımızdan istifadə etməliyik. Mən dünən Cəlilabad rayonunda bir paketləmə müəssisəsinin açılışında da olmuşam. Orada mərci, noxud paketlənir və satışa çıxarılır. Bu da çox gözəl və gəlirli bir sahədir. Əfsuslar olsun ki, biz bu gün də özümüzü bu məhsullarla təmin edə bilmirik və idxaldan asılıyıq. Ona görə, bu sahələrə də çox ciddi dəstək verilməlidir. Hər bir rayonun öz spesifik kənd təsərrüfatı inkişafı proqramı olmalıdır.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı keçən dəfə Masallıda olarkən məsələ qaldırdı ki, taxılçılığın o qədər də böyük səmərəsi yoxdur. Amma indi görün, bu çıxışında məruzə edir ki, digər sahələrin vətəndaşlar, fermerlər və dövlət üçün, ixrac üçün nə qədər böyük səmərəsi var. Ona görə, biz təbii iqlim şəraitindən düzgün istifadə etməliyik. Çünki Azərbaycanda demək olar ki, bütün kənd təsərrüfatı məhsulları yetişir. Bizim 9 iqlim zonamız var. Biz indi tropik meyvələrdən başqa istənilən kənd təsərrüfatı məhsulunu yetişdirə bilərik - meyvə, tərəvəz, tütün, üzüm, pambıq, gərzəkli meyvələr, çay, sitrus meyvələri. Ona görə, biz bu imkanlardan maksimum səmərə ilə istifadə etməliyik.

**Çəltikçiliyə gəldikdə, 1991-ci ildə - müstəqilliyin ilk ilində 1000 hektarda çəltik əkilmişdisə, 2016-cı ildə bu, 2500 hektara çatmışdır və 5600 ton çəltik yığılmışdır. Bu il isə 5 min hektarda çəltik əkilib. Yəni, keçən illə müqayisədə əkin sahələri iki dəfə genişləndirilib. Bu, çox müsbət haldır. Yenə də qeyd etməliyəm ki, fermerlər tərəfindən bu sahəyə çox böyük maraq var. Əgər əvvəlki dövrlərdə çəltikçilik çox əziyyətli bir sahə idisə, insanları çox incidirdisə, əziyyət verirdisə, bu gün artıq bu sahə tam avtomatlaşdırılıb. Dünən mənə çəltikçilik təsərrüfatında nümayiş etdirilən yeni texnoloji proses onu göstərir ki, çəltikçiliyin inkişafı əziyyətsiz də mümkündür - həm səpin, həm də yığım vaxtı. Ona görə, indi texnika gətirilib. Biz çəltikçiliyin artım dinamikasına uyğun xüsusi texnikanın alınması məsələsinə də mütləq baxmalıyıq.**

Əkin sahələrinin su təminatı əlbəttə ki, çox vacibdir. Əfsuslar olsun ki, bu gün bizdə istifadəsiz olan, su altında qalan sahələr, bataqlıq sahələri var. Onlardan da çəltikçiliyin inkişafı üçün istifadə edilməlidir.

Toxumçuluğa da fikir verilməlidir. Burada bu məsələyə də toxunuldu. Bu da vacib məsələdir.

Çəltikçiliyin inkişafı üçün də güzəştli şərtlərlə kreditlər verilməlidir və yeni, müasir düyü emalı müəssisələri yaradılmalıdır. Keçən il ölkəmizə 48 min ton düyü idxal edilmişdir və xaricə 37 milyon dollar getmişdir.

Sitrus meyvələrinin istehsalına gəldikdə, bu sahəyə də çox böyük diqqət göstərilir. Deyə bilərəm ki, bu sahədə də artım var. Misal üçün, 2000-ci ildə 1700 hektarda sitrus meyvələri əkilmişdisə, hazırda 2500 hektarda əkilir. Artım var, ancaq artım daha da sürətli ola bilər. Qeyd etməliyəm ki, dağətəyi ərazilərdə,



yamaclarda terras üsulu ilə sitrus bağlarının salınması məsələlərinə baxmaq lazımdır. Əlbəttə ki, su təminatı olmalıdır. Məndə bəzi rəqəmlər var, hesab edirəm ki, fermerlər üçün maraqlı olar. Keçən il 470 hektarda limon, 255 hektarda portağal, 1700 hektarda naringi əkilmişdir. Yeni soyuducu kameralar yaradılmalıdır və sitrusçuluq üçün kiçik qabaritli xüsusi texnikanın gətirilməsi də mütləq lazımdır. Bu sahədə olan problemlərdən biri də mütəxəssis çatışmazlığıdır. Bizim Aqrar Elm Mərkəzində bu məsələyə baxılmalıdır, lazım olarsa ilkin mərhələdə xaricdən də mütəxəssislər cəlb edilməlidir ki, bu sahə sürətlə inkişaf etdirilsin.

Məlumat üçün qeyd etməliyəm ki, 2016-cı ildə ölkəmizə 17 milyon dollar dəyərində 27 min ton sitrus meyvələri idxal edilmişdir. Ondan 9 min tonu limon, 4600 tonu naringi, 12 min tonu portağal, 2 min tonu kivi olub. Mən bu rəqəmləri ona görə səsləndirirəm ki, sahibkarlar bunu eşitsinlər. Məhz ilkin mərhələdə Azərbaycanda bu qədər sitrus meyvələri yetişdirilməlidir ki, biz idxaldan asılılığı aradan götürək. İdxaldan asılılığı aradan götürmək üçün Azərbaycanda əlavə 27 min ton sitrus meyvələri istehsal olunmalıdır. Məndə olan məlumata görə, bizdə 2010-cu ildə 19 min ton, 2016-cı ildə isə 46 min ton sitrus meyvələri tədarük edilmişdir. Artım çox böyükdür - 6 il ərzində iki dəfədən çox. Bu, yaxşı dinamikadır, ancaq hələ ki, bizi tam qane edə bilməz.

**Beləliklə, əgər bu üç sahənin ümumi idxal həcmini götürsək görərik ki, hər il ölkəmizə 45 milyon dollarlıq çay, 37 milyon dollarlıq düyü, 17 milyon dollarlıq sitrus meyvələri idxal olunur. Bu da təqribən 100 milyon dollar deməkdir. Biz bu ənənəvi sahələri daxili istehsal hesabına inkişaf etdirsək, özümüzü təmin etsək bu məbləğə qənaət etmiş olarıq. Bu, birinci vəzifədir, birinci mərhələdir.** Əsas məsələ ondan ibarətdir ki, biz böyük ixrac potensialı da yaradaq. Verilən tapşırıqlar yerinə yetirilməlidir. Belə olan halda biz bu məqsədə çatacağıq. Bununla paralel olaraq, biz bu məhsullar üçün ixrac bazarlarını da axtarmalıyıq.

Çayçılığa gəldikdə, artıq bu bazarlar var. Sadəcə Azərbaycanda idxal olunan xammal əsasında daha çox çay istehsal edilir. O ki qaldı, sitrus meyvələrinin, düyünün istehsalına, əlbəttə ki, biz paralel olaraq ixrac bazarlarına çıxmalıyıq.

Bütün bu işləri görmək üçün müvafiq dövlət orqanları birgə işləməlidir - Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyəti, yerli icra orqanları. İşlərin ümumi rəhbərliyini Prezident Administrasiyası icra edəcək.

Bu müşavirə bir daha onu göstərir ki, bizim üçün kənd təsərrüfatının bütün sahələri böyük əhəmiyyət daşıyır. Son vaxtlar görülən işlər və keçirilən müşavirələr, mənim bölgələrə səfərlərim bir daha onu göstərir ki, biz düzgün yoldayıq. Biz qısa müddət ərzində özümüzü təminetmə əmsalını daha da artıracağıq. Azərbaycan öz keyfiyyətli məhsulu ilə dünya bazarlarına daha da böyük həcmdə çıxacaq. Beləliklə, ölkə iqtisadiyyatı çoxşaxəli istiqamətdə inkişaf edəcək. İdxaldan asılılıq minimum səviyyəyə düşəcək və yeni iş yerləri, istehsalat sahələri yaradılacaq ki, bunun Azərbaycan vətəndaşları üçün, dövlətimiz üçün böyük faydası var.

Mən əminəm ki, bu gün verilən bütün tapşırıqlar qısa müddət ərzində icra ediləcək. Mənə konkret təkliflər verilməlidir ki, tezliklə bütün tapşırıqlar yerinə yetirilsin və bu sahələr sürətlə inkişaf etsin. Sağ olun.

* * * * *

Sonra Prezident İlham Əliyev müşavirə çərçivəsində təşkil edilmiş sərgi ilə tanış olmuşdur.

İqtisadiyyat naziri Şahin Mustafayev sərgi barədə dövlətimizin başçısına məlumat vermiş, bildirmişdir ki, burada yerli çay və çəltik əkini və emalı, sitrus meyvələrinin, meyvə-tərəvəzin yetişdirilməsi və arıçılıq ilə məşğul olan sahibkarlıq subyektləri məhsullarını nümayiş etdirirlər. Ümumilikdə, sərgidə çayçılıq, çəltikçilik, sitrus meyvəçilik və arıçılıq üzrə 13 yerli müəssisənin 100-dən çox çeşiddə məhsulu nümayiş olunur.

Prezident İlham Əliyevə Azərbaycanda çayçılığın mövcud vəziyyəti və inkişaf perspektivləri barədə də məlumat verilmişdir. Hazırda respublikada çayın ümumi əkin sahəsi 1016 hektardır ki, bundan da 664 hektarı bar verir. Əkin sahələrinin 94 faizi, istehsalın isə 94,7 faizi Lənkəran iqtisadi rayonunun payına düşür. Ötən il min ton çay istehsal edilib, 12 hektar yeni çay plantasiyaları salınıb, hər hektardan orta məhsuldarlıq 14 sentner təşkil edib. 2017-2021-ci illərdə 985 hektar yeni çay plantasiyalarının salınması nəzərdə tutulur. Hazırda respublikada illik emal gücü 24,3 min ton olan 10 çay emalı fabriki fəaliyyət göstərir. Ötən il 6,2 mln. dollar dəyərində 1,1 min ton çay ixrac edilib. Çayçılıqla məşğul olan 14 sahibkara 10,7 mln. manat güzəştli kredit verilib. Bu kreditlər hesabına 450 yeni iş yeri yaradılıb.

Ötən il respublikada 2,5 min hektarda çəltik əkilib, 5,6 min ton məhsul istehsal olunub. Çəltik əsasən Ağdaş, Ucar, Lənkəran və Astara rayonlarında becərilir. Respublikada becərilən əsas sitrus bitkiləri isə limon, portağal, naringi, feyxoa və kividir. Sitrus meyvələrinin əkin sahəsi 3,7 min hektar təşkil edir. Ötən il 56,6 min ton sitrus meyvələri istehsal edilib. Sitrus bağçılıqla məşğul olan 40 sahibkara 1,7 milyon manat güzəştli kredit verilib və bu kreditlər hesabına 200-dən çox yeni iş yeri yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.**

# AQROPARKLARIN YARADILMASI AQRAR BÖLMƏDƏ CİDDİ DÖNÜŞ YARADACAQ



***Son illər Azərbaycanda aqrar sahədə beynəlxalq əhəmiyyətli layihələrin reallaşdırılması ixrac potensialının artırılmasında və onun coğrafiyasının genişləndirilməsində, milli brendlərin yaradılmasında, kiçik və orta fermer təsərrüfatlarının texniki-innovativ təminatında, istehsal, emal və istehlak zəncirinin əlaqəli şəkildə qurulmasında mühüm əhəmiyyət kəsb edir.***

Cənab Prezident İlham Əliyevin cari ilin avqust ayının 20-də açılışında iştirak etdiyi «Şəmkir Aqropark»ı da bu qəbildən olan iri layihədir. Aqroparkların yaradılması kənd təsərrüfatında çalışan sahibkarlıq subyektlərinə texniki-innovativ, aqroservis və logistika xidmətlərinin göstərilməsinə, toxum, şitil, ting, dərman və gübrə ilə təmin olunmasına, kiçik təsərrüfat subyektlərinin iri sənaye istehsalına keçidinin, xarici bazarlara çıxışının təmin edilməsinə geniş imkanlar açır.

«Şəmkir Aqropark»ı qərb regionunda ixrac imkanlarının artırılmasında mühüm rol oynayacaq, dünyanın qabaqcıl logistik şirkətləri ilə əlaqələrinin qurulmasına imkan verəcək, yerli məhsulların «Made in Azerbaijan» brendi ilə ixracını təmin edəcək. Cənab prezident açılışını etdikdən sonra «Şəmkir Aqropark»da beynəlxalq konfrans keçirilmiş, yerli və xarici şirkətlərin məhsullarını nümayiş etdirən sərgi təşkil edilmişdir. Logistik Mərkəzin ərazisində təşkil olunan sərgidə beynəlxalq standartlara cavab verən istixana avadanlıqları, gübrə və dərmanlar, pestisidlər, şitil, ting və toxumlar, traktor, maşın və mexanizmlər nümayiş etdirilmişdir. Sərgiyə Azərbaycan, Türkiyə, İtaliya, Hollandiya, Çin və digər ölkələrin kənd təsərrüfatı üzrə məhsul və avadanlıqların istehsalçıları və distributorları qatılmışlar. Burada, həmçinin Rusiya Federasiyasının «Evroxim» şirkəti tərəfindən Gəncə-Qazax iqtisadi zonasına həsr olunmuş «Məhsul gübrənin törəməsidir» adlı beynəlxalq seminar keçirilmişdir. Seminarda respublikamızın müxtəlif bölgələrində gübrə və bitki mühafizəsi vasitələrinin topdan və pərakəndə satış şəbəkəsinin yaradılması, aqrokimyəvi, bitki mühafizəsi, karantin və toxumçuluq xidmətlərinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlardan danışılmış və qarşıda duran vəzifələrlə bağlı geniş fikir mübadiləsi aparılmışdır. Bütün deyilənlərdən belə qənaətə gəlmək olar ki, qısa zaman kəsiyində belə bir nəhəng strukturun ərsəyə gəlməsi zərurətdən doğub və cənab prezidentin aqrar sahədə irəli sürdüyü inkişaf strategiyasının ayrılmaz tərkib hissəsidir. Ölkə başçısının xeyir-duası və iştirakı ilə 2014-cü ildə Şəmkir rayonunda «Şəmkir Aqropark»ın Logistika Mərkəzinin əsası qoyulub. Aqroparka 8604 hektar, o cümlədən Könüllü kənd ərazisində 604 hektar, «Ceyrançöl» massivində isə 8000 min hektar torpaq sahəsi ayrılıb. İri taxılçılıq, bitkiçilik və meyvəçilik təsərrüfatlarını özündə birləşdirən aqroparkın ərazisində aqrar sektorun inkişafına güclü təkan verəcək 8000 min hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil edilib, Kür çayından əraziyə iki istiqamətdə 730 mm diametrli dəmir borularla 27,5 km və qismən kiçik ölçülü borularla 15,6 km təsərrüfatdaxili su xətləri çəkilib.

Aqroparkın ərazisində zəruri infrastrukturun yaradılması üçün Azərbaycan Respublikası prezidentinin müvafiq sərəncamına əsasən, dövlət büdcəsindən Nazirlər Kabinetinin 10 sentyabr 2016-cı il tarixli sərəncamı ilə 3,2 milyon manat vəsait ayrılıb. Aqropark üçün 10 ədəd müasir tipli «New Holland» markalı traktor və 45 adda müxtəlif kənd təsərrüfatı maşın və mexanizmləri lizing yolu ilə alınıb. Ümumi tutumu 15 milyon kubmetr olan 3 ədəd sututar inşa edilib və sahəsi 2,1 min kvadratmetr olan su anbarı tikilib. Həmçinin, ərazidə 16000 k.va gücündə elektrik yarımstansiyası, 6 ədəd transformator quraşdırılıb və 35 km uzunluğunda elektrik xətti çəkilib. Bundan başqa, 2 ədəd üzən panton üzərində 3 ədəd yeni motor və su nasosu, 1000 hektar torpaq sahəsində ABŞ-ın «Lindsay» şirkətindən alınmış 14 ədəd müxtəlif radiuslu müasir pilot suvarma aqreqatları və avadanlıqları quraşdırılıb. Görülən tədbirlər məhsuldarlığa müsbət təsir göstərib.

Ötən il şəkər çuğunduru sahələrindən 14 min ton məhsul yığılaraq İmişli şəkər zavoduna təhvil verilib, cari ildə isə həmin əraziyə qarğıdalı əkilib. «Ceyrançöl»də 35 nəfər daimi, 200 nəfər mövsümi işlə təmin olunub. Burada ümumi sahəsi 200 kvadratmetr olan 3 otaqdan ibarət ikimərtəbəli ofis binası tikilib.

**Aqroparkda hazırda mövcud olan 1000 hektar torpaq sahəsinin genişləndirilərək, 2018-ci ildə 4600 hektara çatdırılması nəzərdə tutulub. 2018-ci ildə 3 min hektar sahədə qarğıdalı əkilməsi planlaşdırılıb.**

İntensiv bağçılıq təsərrüfatları yaradılması məqsədilə 2400 hektarda suvarma sistemləri quraşdırılıb. Gələcəkdə burada 36000 ton məhsul götürülməsi nəzərdə tutulur. Sahələrdə əsasən, kartof, soya, soğan və digər bitkilər əkiləcək. Həmin məhsulların saxlanılması üçün 30000 tonluq taxıl-anbar kompleksinin tikilməsi, 10000 tonluq kartof saxlama kamerasının yaradılması nəzərdə tutulur.

**8000 min hektar torpaq sahəsində aqrotexniki tədbirlərin yüksək səviyyədə yerinə yetirilməsi üçün ABŞ-ın «John Deere» şirkətinin istehsalı olan 30 adda müasir kənd təsərrüfatı texnikası və avadanlıqları alınacaq. Nəticədə, 5000 min daimi, 1500 mövsümi iş yerləri açılacaq. «Ceyrançöl»də salınacaq bağçılıq təsərrüfatları məhsulları təməli cənab Prezident İlham Əliyev tərəfindən qoyulmuş «Şəmkir Aqropark»ının Logistika Mərkəzində emal ediləcək, ixrac və satış əməliyyatları məhz buradan həyata keçiriləcək. Aqroparkın Könüllü kəndi ərazisində yerləşən hissəsi 604 hektar təşkil edir.** Bunun 100 hektarı sənaye sahəsi, 200 hektarı istixanalar, 274 hektarı intensiv bağçılıq, 25 hektarı tinglik, 5 hektarı isə şitillik üçün nəzərdə tutulub. **Aqroparkda həyata keçirilən bütün bu tədbirlər ölkəmizdə kənd təsərrüfatının ÜDM-də pay nisbətini, eyni zamanda, ixrac potensialını əhəmiyyətli dərəcədə artıracaq. Yenicə fəaliyyətə başlayan Logistika Mərkəzinin ərazisi 12,3 hektardır. Ümumi ölçüləri belədir: uzunluğu 254 metr, eni 141 metr, hündürlüyü 14,6 metr. İstehsal sahəsi 3,3 hektar ərazini əhatə edir. Burada Fransanın «Maf Roqa» şirkətinin meyvələri ölçüsünə və rənginə görə çeşidləyən və qablaşdıran avadanlıqları quraşdırılıb. İri kalibrli meyvələri çeşidləyən avadanlıqların gücü saatda 50 ton, kiçik kalibrli meyvələri çeşidləyən avadanlıqların gücü isə saatda 2 tondur. Burada İtaliyanın «İsolcell» şirkətinə məxsus, tutumu 24000 ton olan 71 ədəd ULO tipli soyuducu saxlama kameraları quraşdırılıb. Soyuducu depolarda meyvə və tərəvəzin növlərinə görə, 25 gündən 270 günə qədər minimum itki və keyfiyyətlə saxlanılması təmin ediləcək. İstehsal sahəsində, eyni zamanda, 200 ton məhsul qəbul edə biləcək 2 terminal, 120 ton hazır məhsulu yola sala bilən 1 terminal yaradılıb.**

Aqroparkın Logistika Mərkəzində müasir avadanlıqlarla təmin edilmiş laboratoriya var. Burada meyvə və tərəvəzin keyfiyyəti, toksikliyi, bakterioloji və mikrobioloji göstəriciləri üzrə analizlər aparılır. Logistika Mərkəzində meyvə və tərəvəzlərin çeşidlənməsi, qablaşdırılması və soyuducu kameralarında yerləşdirilməsi yüksək texnoloji standartlara uyğun şəkildə həyata keçirilir. Məhsul laborator yoxlamadan keçdikdən sonra xüsusi hidroşoklama prosesinə daxil edilir. Bu proseslər zamanı məhsulun temperatur rejiminə ciddi şəkildə əməl olunur. Logistika Mərkəzində regionda geniş yayılan şərq xurmasının alıcılıq qabiliyyətinə təsir göstərən, xüsusi tamın aradan qaldırılması üçün sutkada gücü 1 ton olan «determinq room» qurğusu işə salınıb. Logistika Mərkəzində sahibkarlıq subyektlərinin ixrac əməliyyatları prosesini sadələşdirmək üçün «bir pəncərə» sistemi yaradılıb. Burada Dövlət Gömrük Komitəsinin, İqtisadiyyat Nazirliyi İstehlak Malları Ekspertiza Mərkəzinin, Dövlət Fitosanitar Nəzarət Xidmətinin, «Atabank» Kommersiya Bankının müvafiq strukturları fəaliyyət göstərəcək.

Aqroparkın kommunikasiya təminatı üçün dövlət dəstəyi ilə 25 meqovat gücündə elektrik stansiyası tikilib, saatda buraxılışı 18000 m2 olan 3 km qaz xətti, 48 portluq 22 km fibro-optik rabitə xətti çəkilib. Hazırda 10 km uzunluğunda dəmir yolu xəttinin çəkilişi layihələndirilir.

«Şəmkir Aqropark»ın Logistika Mərkəzi tam işə düşdükdən sonra 274 nəfər işlə təmin olunacaq. Hazırda burada 179 nəfər çalışır, orta aylıq əməkhaqqı 600 AZN-dir. Mərkəzdə ümumi sahəsi 2600 m2 olan ofis binası, konfrans zalı, yeməkxana və s. infrastruktur obyektləri yaradılıb, ərazidə geniş abadlıq işləri aparılıb, 25000 m2 sahəyə yaşıl ot örtüyü, 50000 m2 sahəyə asfalt salınıb.

Mərkəzin ərazisində 20 TİR yük avtomobili dayanacağı, helekopter meydançası, qazanxana tikilib. Layihənin ümumi dəyəri 100 milyon manatdan çoxdur. Tikintiyə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 22,7 milyon manat güzəştli kredit ayrılıb.

«Şəmkir Aqropark»ı kimi möhtəşəm bir layihənin reallaşması Azərbaycanın iqtisadi gücünü və qüdrətini təcəssüm etdirməklə ona yeni iqtisadi və siyasi dividendlər gətirəcək.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

# Türkiyə səfirliyində Zəfər bayramı qeyd edilib



Türkiyənin Azərbaycandakı səfirliyində 30 avqust - Zəfər bayramı münasibətilə tədbir keçirilib.

Qəbulda Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələri, Azərbaycanın ictimai-siyasi xadimləri, media nümayəndələri iştirak edib. Tədbirin açılışında hər iki ölkənin dövlət himnləri səsləndirilib. Daha sonra çıxış edən səfir Erkan Özoral əvvəlcə Türkiyə prezidentinin 30 avqust mesajını oxuyub. O bildirib ki, 30 avqust zəfəri ilə türk milləti azad yaşama iradəsini dünyaya elan edib. Onun sözlərinə görə, Türkiyə 95 il əvvəl olduğu kimi, bu gün də iqtisadi və siyasi təhdidlərlə mübarizə aparır: "Türkiyənin terror təşkilatlarına qarşı mübarizəsi vətəndaşlarının can güvənliyini və qlobal təhlükəsizliyi təmin edir. Ölkəmiz hər cür çətinliklərin öhdəsindən gələ biləcək gücə malikdir".

# «Sülh aylığı» davam edir

12 saylı Ərazi Vergilər Departamentinin (ƏVD) Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsinin əməkdaşları Gəncə şəhərində fəaliyyət göstərən vergi ödəyiciləri ilə görüş keçirib. «Sülh ayı» çərçivəsində təşkil edilmiş tədbirdə 12 saylı ƏVD-nin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsinin direktoru Rauf Mirzəyev çıxışında diqqəti vergi ödəyicilərinin hüquq və mənafelərinin qorunmasına yönəldərək bildirib ki, hazırda vergi orqanları tərəfindən vergi ödəyicilərinə böyük çeşiddə xidmətlər göstərilir, xüsusilə kiçik və orta biznesin inkişafına daha əlverişli şərait yaradılıb, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın səviyyəsinin yüksəldilməsi məqsədilə şəffaf vergi partnyoluğu layihəsi tətbiq olunur. Bu il 12 saylı ƏVİ üzrə 56 vergi ödəyicisinə şəffaf partnyorluq statusunu təsdiqləyən bildirişlər təqdim edilib, hazırda bu istiqamətdə işlər davam etdirilir.

R.Mirzəyev sahibkarlar tərəfindən vergi qanunvericiliyinin tələblərinin yerinə yetirilməsi vəziyyətindən danışaraq bildirib ki, ödəyiciləri cərimələrlə üzləşmək məcburiyyəti qarşısında qoyan amillərdən biri nəzarət-kassa aparatlarına (NKA) çek vurulmaması hallarıdır. Bəzi təsərrüfat subyektlərində POS-terminallar quraşdırılsa da, ondan istifadə edilməməsi də narahatlıq doğurur. Təsərrüfat subyektlərində nağdsız hesablaşmalara riayət edilməsi sahəsində də nöqsanlar diqqətə çatdırılıb. Könüllü vergi ödənişinin yüksəldilməsi ilə bağlı qeyd olunub ki, vergi qanunvericiliyinə əməl etmək hər kəsin qanunla müəyən edilmiş borcudur. Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsinin şöbə rəhbəri Adil Şükürov sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbzlərin təqdim edilməsi barədə məlumat verib. Bildirib ki, indiyədək ərazidə fəaliyyət göstərən sahibkarlara sabit məbləğin ödənilməsinə dair 502 qəbz verilib, vergi öhdəliklərini sadələşdirilmiş vergi üzrə ödəyən digər şəxslərə qəbzin verilməsi barədə işlər aparılır. Vergi orqanında uçota alınmamış şəxslərə ərazi vergi orqanına müraciət edərək VÖEN almaqları tövsiyə olunub.

12 saylı ƏVD-nin dövlət vergi müfəttişi Səbuhi Əhliyyətli ictimai iaşə və xidmət sektorunda vergitutmanın vəziyyəti, sahibkarlıq subyektlərində işəgötürənlər tərəfindən işlərin görülməsi və xidmətlərin göstərilməsinə cəlb edilmiş fiziki şəxslərlə əmək və ya mülki müqavilələrin rəsmiləşdirilməsi və vergilərin ödənilməsi prosedurları, müəssisələrin gəlir və xərclərinin uçotunun aparılması qaydaları, nəqliyyat xidməti və daşımalarda vergitutma məsələləri, sabit verginin tətbiqi və digər məsələlər barədə ətraflı məlumat verib.

Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsinin direktoru Rauf Mirzəyev avqustun 21-dən sentyabrın 21-dək respublikamızda keçirilən «Sülh ayı»nın əhəmiyyətinə toxunaraq bildirib ki, sülh mövzusu bu gün torpaqlarının 20 faizi işğal altında olan, bir milyondan çox qaçqın və məcburi köçkünü olan Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir.

Tədbirin sonunda vergi ödəyicilərinin sualları cavablandırılıb.

# Azərbaycanda aqrar sektorda vergitutma

Qeyri-neft sektorunun prioritet sahəsi hesab edilən kənd təsərrüfatının inkişafı, məhsul istehsalının və satışının stimullaşdırılması, habelə ərzaq təhlükəsizliyinin təmin edilməsi Azərbaycan dövlətinin sosial-iqtisadi siyasətinin əsasını təşkil edir. Müşahidələr göstərir ki, aqrar sektorun vergiyə cəlb olunması ilə bağlı vergi ödəyiciləri tərəfindən bir sıra suallar yaranır. Məsələnin aktuallığını nəzərə alaraq həmin suallarla Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Nicat İmanova müraciət etdik.

**- Nicat müəllim, söhbətimizə Vergi Məcəlləsində edilmiş son dəyişikliklərdə müəyyənləşdirilmiş anlayışlardan başlayaq: kənd təsərrüfatı məhsullarının istehsalı və satışı anlayışları özündə hansı vacib şərtləri birləşdirir?**

- Kənd təsərrüfatı məhsullarının istehsalçıları 1999-cu ildən torpaq vergisi istisna olmaqla, Vergi Məcəlləsi ilə müəyyən edilmiş digər vergilərin ödənilməsindən azad edilmişdir və bu güzəştlər kənd təsərrüfatı məhsullarının birbaşa istehsalı ilə məşğul olan şəxslərə tətbiq edilir. Həmin şəxslər həm də istehsal etdikləri kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olurlar. Bunlarla yanaşı, kənd təsərrüfatı məhsullarının istehsalçısı olmayan şəxslər tərəfindən istehsalçılardan tədarük edilərək digər şəxslərə satılması, habelə hər hansı formada emal edilməklə satılması ümumi qaydada vergiyə cəlb edilir. Bu sahələrdə yaranan fikir ayrılığı və mübahisələrin aradan qaldırılması üçün kənd təsərrüfatı məhsullarının istehsalçılarına tətbiq edilən vergi güzəştlərinin əhatə dairəsini dəqiq müəyyənləşdirmək məqsədilə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə sərhədlərin müəyyən edilməsinə zərurət yaranmış və ötən ilin sonunda Vergi Məcəlləsinə müvafiq dəyişikliklər edilərək, Vergi Məcəlləsinə kənd təsərrüfatı məhsullarının istehsalı və satışı anlayışı əlavə edilmişdir.

Vergi Məcəlləsinin 13.2.60-cı və 13.2.61-ci maddələrinə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalı anlayışı özündə sənaye üsulu da daxil olmaqla heyvanların və quşların yetişdirilməsini, bəslənməsini, diri şəkildə olarkən onlardan məhsulların ilkin formada, yarımfabrikat kimi istifadə olunaraq yeni məhsula çevrilmədən, kimyəvi tərkibi dəyişdirilmədən, konservləşdirilmədən əldə edilməsini, kənd təsərrüfatı məhsullarının satışı sənaye üsulu ilə, xüsusi broyler təsərrüfatlarında, avtomatlaşdırılmış tövlə sistemlərində və digər yerlərdə istehsal olunan canlıların diri şəkildə, habelə onlardan diri şəkildə olarkən əldə edilmiş məhsulların ilkin formada, heç bir kimyəvi təsirə məruz qalmadan təqdim edilməsini nəzərdə tutur.

**- Vergi ödəyicisi həm özünün istehsal etdiyi, həm də digər şəxslərdən aldığı kənd təsərrüfatı məhsullarının satışı ilə məşğul olarkən vergi öhdəliklərini necə yerinə yetirməlidir?**

- Vergi Məcəlləsinin müddəalarına əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən, sənaye üsulu ilə) tərəfindən özlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının satışı üzrə dövriyyələr mənfəət (gəlir) vergisindən, əlavə dəyər vergisindən, sadələşdirilmiş sistem üzrə vergidən və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərin əmlak vergisini ödəməkdən azad edilmişdir.

Buna əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçılarının özlərinin istehsal etdikləri və emal məhsulu olmayan malların satışı üzrə əldə etdiyi gəlirləri mənfəət (gəlir) vergisindən, əlavə dəyər vergisindən, sadələşdirilmiş sistem üzrə vergidən azaddır. Lakin istehsalçı istehsal etdiyi kənd tərəsərrüfatı məhsullarından emal məhsulu formalaşdırırsa (məsələn, yetişdirilmiş mal-qaranın kəsilərək ət şəklində satışı, becərilmiş meyvələrin qurudularaq satışı), həmin emal məhsullarına görə ümumi qaydada seçdiyi vergitutma metodundan (mənfəət (gəlir vergisi) və ya sadələşdirilmiş vergi) asılı olaraq müvafiq vergiləri hesablayıb dövlət büdcəsinə ödəməlidir.

Bunlarla yanaşı, vergi ödəyicisinin digər şəxslərdən aldığı kənd təsərrüfatı məhsullarının satışı onun istehsal etdiyi kənd təsərrüfatı məhsulu hesab edilmir və həmin məhsulların satışından əldə olunan gəlirlərdən ümumi qaydada vergilər hesablanıb dövlət büdcəsinə ödənilir.

Göründüyü kimi, kənd təsərrüfatı məhsullarının tədarük qaydasında alqı-satqısını həyata keçirən şəxslər kənd təsərrüfatı məhsullarının istehsalçıları hesab edilmir və onlara bu sahə üzrə nəzərdə tutulmuş vergi güzəştləri tətbiq edilmir.

**- Kənd təsərrüfatı məhsullarının bazarlarda, yarmarkalarda və səyyar qaydada satışı zamanı hansı vergi öhdəlikləri yaranır?**

- Kənd təsərrüfatı məhsullarının bazarlarda, yarmarkalarda və səyyar qaydada satışından əldə edilən gəlirlər sadələşdirilmiş vergitutma metodu tətbiq edildiyi halda təqdim edilmiş mallara görə hasilatın həcmindən (xərclər çıxılmadan) Bakı şəhərində 4 faiz dərəcə ilə hesablanır. Gəlir vergisi metodu tətbiq edildiyi halda isə təqdim edilmiş mallara görə əldə olunan gəlirdən təqdim olunan malların alınmasına çəkilən xərclər, habelə qanunla nəzərdə tutulmuş icbari ödənişlər çıxıldıqdan sonra 20 faiz dərəcə ilə gəlir vergisi hesablanır.

Bununla yanaşı, bazarlarda, yarmarkalarda və səyyar qaydada kənd təsərrüfatı məhsullarının satışı həyata keçirildikdə bu malların alıcılarına qəbz və ya digər ciddi hesabat blankı təqdim edilməli və həmin blanklarda qanunvericiliklə müəyyən edilmiş məlumatlar əks olunmalıdır.



**- Kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı ƏDV-nin ticarət əlavəsindən hesablanması necə aparılır?**

- Məlum olduğu kimi, kiçik və orta sahibkarlığın inkişafı, istehlakçıların üzərindəki vergi yükünün azaldılması məqsədilə qanunvericiliyə edilmiş dəyişikliklərə əsasən, tədarük qaydasında kənd təsərrüfatı məhsullarının istehsalçılarından alınmış kənd təsərrüfatı məhsulları əhaliyə satılarkən ƏDV həmin məhsulların tam dəyərindən deyil, onların alış və satış qiyməti arasındakı fərq olan ticarət əlavəsindən hesablanılır. Yəni, sahibkar 100 manatlıq kənd təsərrüfatı malını istehlakçıya ƏDV-siz 120 manata satdıqda ƏDV-ni 20 manatdan hesablayır. Lakin qanunvericilik bu qaydada ƏDV-nin hesablanması üçün sahibkar tərəfindən həmin malların uçotunun ayrılıqda aparılmasını şərtləndirir. Belə ki, sahibkar həm kənd təsərrüfatı məhsullarının istehsalçısından birbaşa malı alaraq müştəriyə sata bilər, həm də belə malları idxal edərək və ya digər tədarükçü topdansatış fəaliyyəti ilə məşğul olan şəxslərdən alaraq müştərilərə sata bilər. Bu mallar üzrə uçot ayrılıqda aparılmadığı halda bütün məhsulların ümumi dəyərindən ƏDV hesablanmış olacaqdır.

**- Təyinatı üzrə istifadə edilməyən kənd təsərrüfatı torpaqları necə müəyyənləşdirilir? Bu cür torpaqlar üzrə torpaq vergisinin dərəcəsi necə müəyyən olunur və bu sahədə vəziyyət necədir?**

- Təyinatı üzrə istifadə edilən və ya istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqları Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən verilən arayışa əsasən müəyyən edilir. Həmin arayışda torpaqların üzrlü və ya üzrsüz səbəbdən istifadə edilməməsi göstərilir. Bu arayışlardakı məlumatlar əsasında həmin torpaqlar üzrə vergilər təyinatı üzrə istifadə edilən və ya irriqasiya, meliorasiya və digər aqrotexniki səbəblərdən təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqları üzrə torpaq vergisinin dərəcəsi 1 şərti bal üçün 0,06 manat, qeyd olunan torpaqlar istisna olmaqla təyinatı üzrə istifadə olunmayan kənd təsərrüfatı təyinatlı torpaqların hər 100 kvadratmetrinə görə 2 manat məbləğində müəyyən edilməklə hesablanır.

Məlumat üçün bildirim ki, ölkə başçısının 1 iyun 2016-cı il tarixli 928 nömrəli Fərmanında təyinatı üzrə istifadə edilən və ya təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqlarının müəyyən edilməsi meyarlarının və qaydasının dəqiqləşdirilməsi Nazirlər Kabinetinə tapşırılmışdır. Bu məqsədlə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən hazırlanmış «Təyinatı üzrə istifadə edilən və ya təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqlarının müəyyən edilməsi meyarları və qaydasının təsdiq edilməsi haqqında» Qərar layihəsinə Vergilər Nazirliyi tərəfindən təkliflər verilmiş, görüşlər keçirilmiş və qarşılıqlı müzakirələr aparılmışdır. Kənd Təsərrüfatı Nazirliyi tərəfindən fiziki şəxslərin mülkiyyətində və ya istifadəsində olan kənd təsərrüfatı təyinatlı torpaqlar barədə aktual elektron məlumat bazasının formalaşdırılması yekunlaşdıqdan, torpaqlar və onların mülkiyyətçiləri (və ya istifadəçiləri) barədə məlumatlar həmin elektron məlumat bazasına daxil edildikdən sonra vergilərin düzgün hesablanması məqsədilə Vergilər Nazirliyi və bələdiyyələr real vaxt rejimində, məhdudiyyətsiz və fasiləsiz çıxış əldə etmiş olacaqlar.

**- Kənd təsərrüfatının inkişafı, bu sahədə investisiya qoyuluşlarına əlverişli imkanların yaradılması üçün hansı güzəştlər mövcuddur?**

- Məlum olduğu kimi, Vergilər Nazirliyi Azərbaycan Respublikasında aparılan vahid maliyyə və büdcə siyasəti çərçivəsində dövlət vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Kənd təsərrüfatı məhsullarının istehsalçılarına müvafiq vergi güzəştlərinin verilməsi kənd təsərrüfatının əsaslı şəkildə inkişafını və bu sahəyə investisiya qoyuluşlarının artırılmasını təşviq etmişdir. Deyildiyi kimi, kənd təsərrüfatı məhsullarının istehsalçılarına 1999-cu ildən müvafiq vergilər üzrə güzəştlər tətbiq edilir: vergi qanunvericiliyinə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçıları torpaq vergisi istisna olmaqla 2019-cu ilin 1 yanvar tarixinədək Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş mənfəət vergisini, gəlir vergisini, əlavə dəyər vergisini, sadələşdirilmiş sistem üzrə vergini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azad edilmişdir.

Bunlarla yanaşı, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarların dövriyyə vəsaitlərinə qənaət edilməsi məqsədilə bəzi malların idxalda ƏDV-dən azad edilməsini nəzərdə tutan maddələr Vergi Məcəlləsinə əlavə edilmişdir. Lakin Məcəllənin 159.10-cu maddəsinə uyğun olaraq ƏDV-dən azad edilən idxal mallarının Azərbaycan Respublikasının ərazisində təqdim edilməsi ümumi qaydada ƏDV-yə cəlb edilir. Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarlara bu sahədə güzəştlərin verilməsi məqsədilə bəzi malların idxalının ƏDV-dən azad edilməsi ilə yanaşı, onların ölkə daxilində satışı da ƏDV-dən azad edilmişdir. Buraya aiddir: damazlıq heyvanların idxalı və satışı, toxum və tinglərin idxalı və satışı, mineral gübrələrin, pestisidlərin idxalı və satışı, toxumların yetişdirilməsi, quşçuluq və arıçılıq üçün avadanlıqların, o cümlədən laboratoriya avadanlıqlarının, toxum, taxıl və quru paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınların idxalı və satışı, kənd təsərrüfatı heyvanlarının və quşların profilaktikası, diaqnostikası və müalicəsi üçün istifadə olunan baytarlıq preparatlarının idxalı, bilavasitə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların idxalı və satışı.

Bunlardan əlavə, mövcud qanunvericilik kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan şəxslərin də bilavasitə əlaqəli olan fəaliyyət sahəsinə uyğun investisiya təşviqi sənədini almasına və həmin sənəd əsasında müvafiq vergi güzəştlərindən istifadə etməsinə imkan yaratmışdır. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, 2016-cı il yanvarın 1-dən hüquqi şəxslər və fərdi sahibkarlar Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi qaydaya uyğun olaraq verilən investisiya təşviqi sənədi əsasında əlavə dəyər vergisindən, əmlak və torpaq vergilərindən, o cümlədən həmin sənədi aldığı tarixdən əldə etdiyi gəlirin (mənfəətin) 50 faizi məbləğində gəlir və mənfəət vergilərindən 7 il müddətinə azaddır.

**- Kənd təsərrüfatı məhsullarının satışı prosesində hüquqi şəxslər və fərdi sahibkarlar arasında bağlanmış konsessiya müqaviləsi üzrə yaranan vergi öhdəlikləri necə müəyyən edilir?**

- Son zamanlar qanunvericiliyin tətbiqi barədə daxil olan sorğuların əksəriyyətinin təhlili zamanı məlum olmuşdur ki, fərdi sahibkarların hüquqi şəxslərin istehsal etdiyi malları konsessiya müqaviləsi üzrə təqdim etməsi əməliyyatı malların agent tərəfindən təqdim edilməsi əməliyyatı ilə qarışıq salınır.

Nəzərə alınmalıdır ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 808.1-ci maddəsinə əsasən, komissiya müqaviləsinə görə, bir tərəf (komisyonçu) digər tərəfin (komitentin) tapşırığı ilə muzd müqabilində öz adından, lakin komitentin hesabına bir və ya bir neçə əqd bağlamağı öhdəsinə götürür.

Vergi qanunvericiliyinə əsasən, komissiyaya qəbul edilmiş mallar «Malların təhvil-qəbul aktı» ilə sənədləşdirilir və həmin sənədlərdə göstərilən qiymətlərlə uçota alınırlar. Malların komissiyaya qəbul edilməsi ilə bağlı tərəflər arasında müqavilə bağlanır. Elektron qaimə-faktura hüquqi şəxslərə və fərdi sahibkarlara malları təqdim edən, işləri görən və xidmətləri göstərən şəxslər tərəfindən təqdim edilir. Malların komissiyaya verilməsi malların təqdim edilməsi hesab edilmədiyindən komitent tərəfindən komisyonçuya verilmiş mallara görə elektron qaimə-faktura təqdim edilmir.

Vergi Məcəlləsinin 172.4.4-cü maddəsində göstərilmişdir ki, agent üçün vergitutma bazası onun digər şəxslərə malların təqdim edilməsi (işlərin görülməsi, xidmətlərin göstərilməsi) üzrə göstərdiyi xidmətlərin dəyəri, vergi tutulan əməliyyatların vaxtı bu xidmətlərin faktiki göstərildiyi vaxt, vergi tutulan əməliyyatların dəyəri isə onun digər şəxsdən almalı olduğu (aldığı) haqdır (mükafatdır).

Mülki Məcəllənin 800-cü maddəsinin müddəalarına əsasən, konsessiya müqaviləsi üzrə konsessioner kontrakt mallarını müəyyən ərazilərdə və (və ya) müəyyən müştərilərə (müqavilə ərazisi və müqavilə müştəriləri) satmağı öhdəsinə götürür. Mallar barəsində tapşıran konsessionerə müstəsna satış hüququ (inhisar hüququ) verir, konsessioner isə tapşıranın mallarının onun nəzarəti altında satışına qarantiya verməlidir.

Göründüyü kimi, tərəflər arasında qanunvericiliklə müəyyən olunmuş qaydada bağlanmış komissiya müqavilələri əsasında malların təqdim edilməsi agent vasitəsilə həyata keçirilə bilər. Bu zaman malların satışını komissiya müqaviləsi əsasında həyata keçirən agent üçün vergi tutulan əməliyyatın dəyəri satış üzrə xidmətlərin göstərilməsinə görə ona ödənilən haqdır (mükafatdır).

Konsessiya müqaviləsi əsasında alınmış malların satışından əldə olunan gəlirlər isə tam məbləğdə fərdi sahibkarın vergi tutulan gəlirlərinə (ümumi hasilata) aid edilməli və müvafiq vergilərin hesablanıb dövlət büdcəsinə ödənilməsi təmin edilməlidir.

## Məktəblilər üçün ödənişsiz "Coding Kids – Summer Course" layihəsi uğurla həyata keçirildi



Azercell Telekom MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin PAŞA Bankın dəstəyi ilə ödənişsiz həyata keçirdiyi "Coding Kids – Summer IT School" layihəsinin dərsləri artıq başa çatıb. 31 avqust tarixində Bulvar Hotel Bakı-da mükafatlandırma mərasimi keçirilib və 50 nəfər məktəbliyə sertifikat təqdim olunub.

Hal-hazırda texnologiyaların inkişafı və artımı ilə iqtisadiyyatda baş verən sürətli dəyişikliklərə uyğunlaşmaq üçün rəqəmsal savadlılığa yiyələnmək başlıca rol oynayır. Bunu nəzərə alaraq məktəblilər üçün "Coding Kids – Summer IT School" layihəsi uşaqlara oyun və əyləncədən əlavə kompüter və telefonlardan istifadənin digər faydalı imkanları olduğunu izah edib. 15 iyul-25 avqust tarixlərində baş tutan layihədə 50 məktəbli iştirak edib. Mərkəzin təqdim etdiyi kodlaşdırma təlimləri vasitəsilə uşaqlar yeni dünya ilə tanış olmağa başlayıblar.

"Coding Kids – Summer IT School" layihəsi çərçivəsində 9-11 və 12-15 yaşlı məktəblilər üçün həftədə 3 dəfə Barama İnnovasiya və Sahibkarlıq Mərkəzində interaktiv tədris metodları əsasında təlimçi Günay Kazımzadə tərəfindən dərslər aparılıb. Uşaqlara 6 həftə ərzində İnformasiya Texnologiyalarına və Kompüter elmlərinə giriş, Kodlaşdırma Texnikası, Mobil Tətbiqlərin Yazılması, Verilənlər Bazası, C++ Proqram dilinin öyrənilməsi və digər maraqlı mövzular tədris edilib.

## Beynəlxalq Bankın xarici öhdəliklərinin restrukturizasiyası prosesi uğurla başa çatdı

Azərbaycan Beynəlxalq Bankının xarici öhdəliklərinin könüllü restrukturizasiyası planına uyğun olaraq 1 sentyabr 2017-ci il tarixində bankın kreditorlarına yeni maliyyə alətləri təqdim edilmiş və bununla da müəyyən öhdəliklərin dövlətə ötürülməsi uğurla başa çatmışdır.

Xatırladaq ki, 18 iyul 2017-ci il tarixində Azərbaycan Beynəlxalq Bankının kreditorlarının yığıncağı keçirilib. Səsvermənin nəticələrinə əsasən, bankın restrukturizasiya olunan öhdəliklərinin 93.9%-ə malik kreditorlar planın lehinə səs verib. "Banklar haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, Maliyyə Bazarlarına Nəzarət Palatasının rəyindən sonra Bakı şəhər, Nəsimi Rayon Məhkəməsi 17 avqust 2017-ci il tarixində Planın təsdiqlənməsinə dair qərar çıxarıb.

Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin sədri Xalid Əhədov prosesin nəticəsini belə şərh edib: "Restrukturizasiya prosesi gözlədiyimiz kimi uğurla başa çatdı. Bu prosesin həyata keçirilməsi bankın uzunmüddətli dayanıqlığının təmin olunması baxımından həlledici addım idi. Hazırda bankın problemli aktivlərinin müəyyən hissəsinin Aqrarkredit təşkilatına ötürülməsi istiqamətində yekun tədbirlər həyata keçirilir. Hər iki addım bankın kapitallaşmasını, mənfəətliyini və maliyyə bazarında dayanıqlığını təmin edəcək. Bütün bunlar bankın özəlləşməyə açıq elan edilməsi ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsinə də imkan verəcək".

Azərbaycan Beynəlxalq Bankının xarici kreditorlar qarşısındakı öhdəliklərinin 11 may 2017-ci il tarixindən elan edilmiş könüllü restrukturizasiyası prosesi Nəsimi rayon məhkəməsinin prosesə xitam verilməsinə dair qərarı ilə tam yekunlaşmış olacaqdır.

## Alma bağlarında məhsul yığımı başlayır

Qubalı bağbanlar avqustun ikinci ongünlüyündən etibarən alma bağlarından bu ilin ilk məhsulunun yığımına başlayıblar. Rayon bağlarında kütləvi alma yığımına isə sentyabrın 15-dən sonra başlanacaq.

Hazırda "Slava pobeditelyam", "Qrandşteyn", "Anis" və digər tezyetişən alma sortlarının yığımı yekunlaşmaq üzrədir. Yığılan meyvə yerli və paytaxt bazarlarında, eləcə də respublikamızın digər bölgələrində satılır.

Uzun illərdir meyvəçiliklə məşğul olan Əlfəddin Məhəmmədovun 1 hektar alma bağı var. Ötən il həmin bağdan 30 ton məhsul yığıb. Fermer alma bağlarında məhsuldarlığın ötən illə müqayisədə nisbətən aşağı olduğunu bildirir. Təsərrüfatçılar hazırda toplanan məhsulun bir kiloqramını 40-50 qəpiyə satırlar.

Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun mütəxəssisi Mədət Qurbanov müsahibəsində də bildirib ki, şimal bölgəsində tezyetişən alma sortları ümumi meyvə bağlarının çox cüzi hissəsini təşkil edir. Quba-Xaçmaz zonası üzrə ümumilikdə 22 min 32 hektar alma bağı mövcuddur. Bunun 13 min 472 hektarı Quba rayonunun payına düşür.



## Neftin qiymətinin aşağı düşməsi Məkkəyə investisiyanı artırıb!

Bu il dünya üzrə 1,75 milyondan artıq Müsəlman həcc vəzifələrini yerinə yetirmək üçün müqəddəs torpaqlara axın edərkən, Səudiyyə Ərəbistanı buraya 80 milyard dollardan çox investisiya qoyur.

Bu investisiyanın ən böyük səbəbi düşən neft qiymətləridir. 2008-ci ildə barreli 143 dollar səviyyəsində olan neft 2016-cı ilin yanvar ayında 28 dollar ilə dib səviyyəsini görmüşdü. Brent neft bu il isə 44 dollar ilə ilin ən aşağı səviyyəsini görməsinin ardından son günlər 50 dollar ətrafında ticarət olunmaqda davam edir.

Neft qiymətlərindəki bu sərt azalmalar, dünyanın ən böyük neft istehsalçılarından biri olan Səudiyyə Ərəbistanı iqtisadiyyatı üçün də çətinliklər yaradır. Düşən neftin yaratdığı gəlir itkisini kompensasiya etmək istəyən Səudiyyə hökuməti neftdən sonrakı ən böyük ikinci gəlir mənbəyinə investisiya edir. Bu çərçivədə hökumət Məkkədə dünyanın ən böyük otelini inşa edir. Bununla da kifayətlənməyən Səudiyyə hökuməti Məscid-i Haramı 7 milyon Müsəlmanı qəbul edəcək şəkildə genişləndirmə işlərini davam etdirir.






## 10 min yeni iş yeri yaradacaq 37 iri layihə

Hazırda respublikada 26 rayon üzrə 157,8 min hektar ərazidə 37 aqroparkın yaradılması təşviq olunur.

Bundan 23-ü iri bitkiçilik təsərrüfatı, 14-ü isə heyvandarlıq kompleksidir. Bu aqroparklarda 10 min yeni iş yerinin açılması nəzərdə tutulur.

On aqropark üzrə dəyəri 390 milyon manat olan 13 layihəyə investisiya təşviqi sənədi verilib.

İndiyədək 10 min hektar ərazidə 2 aqropark yaradılıb. Bunlar Xaçmaz rayonunda "Yalama Aqropark"ı və Şəmkir rayonunda "Şəmkir Aqropark"ıdır.

Hazırda Hacıqabul, Goranboy, Samux, Ağcabədi, Qax, Salyan, Kürdəmir, Şamaxı, Saatlı, Cəlilabad, Füzuli və İsmayıllı rayonlarında 58 min hektar ərazidə 12 aqroparkın yaradılmasına başlanılıb.

Aqroparklar tam fəaliyyətə başladıqdan sonra il ərzində təxminən 500 milyon manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal olunacaq.



Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə i.e.d., professor
**XOSROV KƏRİMOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Milli Məclisin deputatı Rəşad Mahmudova qardaşı
**ƏBDÜLHÜSEYN MAHMUDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlmədikdə, müəllif məsuliyyət daşıyır. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500